# Azərbaycanın Qranada görüşündən imtinası doğru qərar idi

**Oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən dördtərəfli görüşdə Azərbaycan-Ermənistan məsələləri müzakirə edilib. Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçirilən görüşdə Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qorunmasının vacibliyi vurğulanıb.**

Milli Məclisin deputatı Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın İspaniyada keçirilən beştərəfli görüşdən imtina etməsi doğru qərar idi. Orada müzakirə olunan mövzulara gəlincə isə xatırlatmaq lazımdır ki, ölkəmizin ərazi bütövlüyünü təsdiqləyən sənəd onsuz da mövcud olduğuna görə, məzmunundan asılı olmayaraq başqa bəyanat və bəyannamələr heç nəyi dəyişmir.

"Avropa Siyasi Birliyinin Qranada görüşü çərçivəsində mətbuat konfransı zamanı Fransa Prezidenti Emmanuel Makron Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Fransanın çoxsaylı etnik xalqların sülh şəraitində yaşadığı, multikultural və multietnik dəyərləri ilə dünya ölkələrinə nümunə olan Azərbaycana



azlıqların hüquqları barədə dərs keçmək cəhdi qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, Fransa özünün soyqırımı siyasəti ilə dünyada məşhurdur və Avropa İttifaqına üzv ölkələr arasında Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına qoşulmayan yeganə ölkədir", - deyə deputat bildirib.

Müsahibimiz əlavə edib ki, ümumiyyətlə, 30 il müddətində Azərbaycan ərazilərinin 20 faizə yaxın hissəsinin Ermənistan tərəfindən işğalına, hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına göz yumanların özlərini vasitəçi kimi təqdim edib əsassız ittihamlar irəli sürməyə haqları yoxdur.

Fazil Mustafa bəyanatda Ermənistanın (29 min 800 kvadratkilometr) və Azərbaycanın (86 min 600 kvadratkilometr) suverenliyinin, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına yönələn səylərin dəstəkləndiyini də xatırladıb. Onu da bildirib ki, Şarl Mişel cari ilin 14 may və 15 iyul tarixli bəyanatlarında da bu faktları qeyd edib".

Deputat əlavə edib ki, BMT və digər böyük təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyıblar. Yəni bu məsələ onsuz da şübhə altına salına bilməz. Biz 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzü artıq bərpa etmişik və torpaqlarımızın neçə kvadratmetr olması hər kəsə bəllidir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 oktyabr.- S.7.